

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 92 (24.229)

*24 may 2023-cü il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev ATƏT Parlament Assambleyasının sədrini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 23-də ATƏT Parlament Assambleyasının sədri xanım Marqareta Sederfelti qəbul edib.

Marqareta Sederfelt Milli Məclisin və ATƏT Parlament Assambleyasının birgə təşkilatçılığı ilə "Yaşıl iqtisadiyyat, nəqliyyat əlaqələndirilməsi və dayanıqlı inkişaf vasitəsilə təhlükəsizlik və sabitliyin təşviqində milli parlamentlərin rolu" mövzusunda Bakıda keçirilən beynəlxalq konfransın əhəmiyyətini vurğuladı və bu tədbirdə ATƏT-ə üzv ölkələrin çox sayda parlament nümayəndə heyətlərinin təmsil olunduğunu bildirdi, burada gündəlikdə duran vacib məsələlərin müzakirəsi üçün yaxşı imkan yarandığını dedi.

ATƏT Parlament Assambleyasının sədri nümayəndə heyəti ilə birlikdə Zəngilan rayonuna səfər edəcəklərini və ərazilərimizin yenidən qurulması prosesləri ilə tanış olacaqlarını vurğuladı.

Marqareta Sederfelt hazırda Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması istiqamətində media müstəvisində müsbət bəyanatların olduğunu qeyd edərək sülh gündəliyi ilə maraqlandı.

Dövlətimizin başçısı Milli Məclisin və ATƏT Parlament Assambleyasının birgə təşkilatçılığı ilə keçirilən beynəlxalq konfransın əhəmiyyətini vurğuladı. Nümayəndə heyətinin işğaldan azad edilmiş torpaqlarımıza səfərinin, orada aparılan işlərlə yerində tanış olmalarının önəmini qeyd edən Prezident İlham Əliyev hazırda həmin ərazilərimizdə genişmiqyaslı bərpa-quruculuq işlərinin həyata keçirildiyini diqqətə çatdırdı.

Azərbaycan Prezidenti 44 günlük Vətən müharibəsi başa çatandan sonra Ermənistanla münasibətlərin normallaşması və sülh müqaviləsinin imzalanması təşəbbüsü ilə məhz Azərbaycanın çıxış etdiyini vurğuladı. Dövlətimizin başçısı bu xüsusda, son dövrlərdə iki ölkənin xarici işlər nazirləri səviyyəsində sülh müqaviləsinin mətni üzrə Vaşinqtonda aparılmış müzakirələri, həmçinin Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəstəyi ilə özünün Ermənistanın baş naziri ilə keçirdiyi görüşləri qeyd etdi, qarşıdan gələn dövrlərdə də müxtəlif beynəlxalq tədbirlər çərçivəsində görüşlərin olacağını bildirdi.

Prezident İlham Əliyev Azərbaycanın təqdim etdiyi 5 prinsip, xüsusilə dövlətlərin ərazi bütövlüyünün və suverenliyinin qarşılıqlı şəkildə tanınması əsasında ölkəmizin sülh müqaviləsinin imzalanmasını dəstəklədiyini vurğuladı.

Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan, Gürcüstan və Ermənistanın eyni platformada bir araya gətirilməsi və inteqrasiya olunmuş Cənubi Qafqaz modelinin yaradılması təşəbbüsü məhz Azərbaycan tərəfindən irəli sürülüb.

Görüşdə nəqliyyat-kommunikasiya xətlərinin açılması məsələləri də müzakirə olundu.

## Prezident İlham Əliyev Monteneqro parlamentinin sədrini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 23-də Monteneqro parlamentinin sədri xanım Daniyela Curoviçi qəbul edib.

Dövlətimizin başçısı ikitərəfli əlaqələrimizin yaxşı səviyyədə olduğunu bildirdi. Prezident İlham Əliyev hazırkı dövrdə Avropanın enerji təchizatının şaxələndirilməsi məsələsində ölkəmizin önəmli tərəfdaşa çevrildiyini dedi, Azərbaycan ilə Monteneqro arasında müxtəlif sahələrdə, o cümlədən nəqliyyat və energetika sahələrində də əməkdaşlığın genişləndirilməsinin önəmini vurğuladı.

Parlamentlər səviyyəsində əlaqələrin əhəmiyyətinə toxunan Azərbaycan Prezidenti ölkələrimizin müxtəlif parlamentlərarası beynəlxalq təşkilatlarda bir-birini dəstəklədiyini qeyd etdi. Dövlətimizin başçısı Daniyela Curoviçin ölkəmizə səfərinin əlaqələrimizin inkişaf perspektivlərinin müzakirəsi baxımından yaxşı imkan yaratdığını vurğuladı.

Qonaq Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi və qarşıdan gələn 28 May – Müstəqillik Günü münasibətilə təbriklərini çatdırdı.

Daniyela Curoviç Azərbaycanla Monteneqronun dost ölkələr olduğunu vurğulayaraq, Milli Məclis və ATƏT Parlament Assambleyasının birgə təşkilatçılığı ilə "Yaşıl iqtisadiyyat, nəqliyyat əlaqələndirilməsi və dayanıqlı inkişaf vasitəsilə təhlükəsizlik və sabitliyin təşviqində milli parlamentlərin rolu" mövzusunda beynəlxalq konfransın Bakıda keçirilməsinin önəminə toxundu, bu tədbirdə enerji və ərzaq təhlükəsizliyi, həmçinin digər mühüm məsələlərin müzakirə olunduğunu bildirdi. Monteneqro parlamentinin sədri konfrans çərçivəsində Zəngilan rayonuna səfərin də təşkil ediləcəyini və işğaldan azad edilmiş ərazilərimizdə yenidənqurma işləri ilə yerində tanış olacaqlarını diqqətə çatdırdı.

Qonaq Monteneqronun Azərbaycan ilə enerji sahəsində əməkdaşlığın inkişaf etdirilməsində maraqlı olduğunu vurğuladı. Ölkələrimiz arasında çarter aviareyslərinin həyata keçirildiyini deyən Daniyela Curoviç bunun turizm sahəsində əlaqələrin genişlənməsinə töhfə verdiyini qeyd etdi, gələcəkdə bu istiqamətdə də əməkdaşlığı dərinləşdirmək üçün yaxşı imkanların olduğunu bildirdi.

Görüşdə, həmçinin sərmayələr sahəsində əməkdaşlıq məsələləri də müzakirə olundu.

**AZƏRTAC**

## S.İ.Paşayevin Naxçıvan Muxtar Respublikasının prokuroru təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 133-cü maddəsinin IV hissəsini rəhbər tutaraq **qərara alıram:**

1. Sənan İsa oğlu Paşayev Naxçıvan Muxtar Respublikasının prokuroru təyin edilsin.
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 23 may 2023-cü il*

## "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 17 aprel tarixli 2854 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 17 aprel tarixli 2854 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 4, maddə 408) aşağıdakı dəyişikliklər edilsin:

1. "Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi" abzası ləğv edilsin.
2. "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Miqrasiya proseslərinin təhlili və informasiya təminatı baş idarəsinin rəisi" abzasından sonra aşağıdakı məzmunda yeni abzaslar əlavə edilsin:

"Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Bakı şəhər regional miqrasiya baş idarəsinin rəisi

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Naxçıvan regional miqrasiya baş idarəsinin rəisi".

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 23 may 2023-cü il*

## Çempionun son oyunu – "Araz-Naxçıvan"-"Zaqatala"





*Ardı 2-ci səhifədə*




Azərbaycan I Divizionunda “Araz-Naxçıvan” Naxçıvanda mərkəzi stadionda “Zaqatala” komandası ilə qarşılaşıb.

Çempionatın sonuna 3 tur qalmış çempionluğunu təmin edən Naxçıvan təmsilçisi “Zaqatala” ilə oyunda ilk hissəni 0:0 hesabı ilə başa vurub. Oyunun ikinci hissəsində hücumların kəsərini artıran “qırmızı-ağlar” hesabı 2:0 öz xeyirlərinə dəyişiblər. Oyun bu hesabla yekunlaşıb. Qolların müəllifi çempionatın ən sərrast futbolçusu Orxan Əliyev olub. Bununla da “Araz-Naxçıvan” I Divizionda çempionluğunu tam rəsmiləşdirib.

Matçı stadionda Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, AFFA-nın prezidenti Rövnəq Abdullayev, digər rəsmi şəxslər və muxtar respublika sakinləri izləyiblər.

Oyundan sonra “Araz-Naxçıvan”a doğma meydanda kubok və medallar təqdim olunub.

Qeyd edək ki, stadionda Azərbaycan Respublikasının Əməkdar artisti Ədalət Şükürov konsert proqramı ilə çıxış edib.

**“Şərq qapısı”**

*2023-cü il “Heydər Əliyev İli”dir*

# Xalqa həsr olunmuş ömür

## *Ümummilli Liderimiz Heydər Əliyev sovet Azərbaycanına rəhbərliyi dövründə (1969-1982) ölkəmizin gələcək müstəqilliyi naminə misilsiz xidmətlər göstərmişdir*

*1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi təyin edilən gündən öz azad fikirləri ilə seçilən Ümummilli Liderimiz Heydər Əliyev çox reallığa dayanan faktlardan, “rüşvətxorluq kimi son dərəcə qorxulu vəzifə cinayətindən” açıq danışırdı. “Kölgə iqtisadiyyatı” dövlətin daxilində özünə elə yer eləmişdi ki, sənaye və kənd təsərrüfatının ayrı-ayrı sahələri xüsusi mülkiyyət kimi istismar olunurdu, inzibati orqanların bəzi rəhbərləri isə bu cür faktlara liberal münasibət göstərir, çox zaman bu və ya digər pozuntunu partiya prinsipiallığı ilə pisləmək əvəzinə “vəzifənin şərəfini qorumaq”, günahkar işçini təmizə çıxarmaq barədə düşünürdülər. Ayrı-ayrı partiya komitələri kadrların seçilməsi və yerləşdirilməsi prinsiplərinin kobudcasına pozulması hallarına göz yumur, bəzi rəhbər işçilərin şəxsi sədaqət, yerliçilik, qohumluq əlamətlərinə və ya dostluq münasibətlərinə görə adamları məsul vəzifələrə təyin etmək cəhdlərinin qarşısını almır, öz vəzifələrinin öhdəsindən gələ bilməyən işçilərin bir nomenklatura vəzifəsindən digərinə təyin edilməsi hallarına qarşı mübarizə aparmırdılar. Vəzifəli şəxslər tərəfindən elmi dərəcə almaqla öz vəzifə kürsülərində daha da möhkəmlənmək və irəli çəkilmək naminə dissertasiyaların yazılmasına nəzər yetirən dahi lider vurğulayırdı ki, bu işlərin çoxu nə elmi, nə də ki praktiki əhəmiyyət kəsb edir. Dissertasiyaların çoxu şəxsi maraq müqabilində yazılır və bütün bunlar elmin inkişafına, savadlı və layiqli kadr potensialının formalaşmasına mənfi təsir göstərir.*

Sov.İKP MK-nın Baş Katibi L.İ. Brejnevdən fərqli olaraq dahi şəxsiyyət Heydər Əliyev 70-ci illərdə kadrları, ilk növbədə, iş keyfiyyətlərinə, istedad və qabiliyyətlərinə görə seçirdi. Onun üçün irəli çəkdiyi adamın hansı regiondan olmasının qətiyyən əhəmiyyəti yox idi. Əksinə, müasirlərinin dediyinə görə, Ulu Öndər onları müxtəlif partiya-təsərrüfat sahələrinə, respublikanın müxtəlif regionlarına “atmağa” üstünlük verirdi. Bu, 1970-ci il martın 20-də Sov.İKP MK-nın plenumunda zəhmətkeşlərin qayğılarına diqqətsizlik göstərildiyinə, partiya kadrlarının düzgün seçilib yerləşdirilmədiyinə, vəzifə mövqelərindən sui-istifadə edən, qeyri-qanuni varlanan, dövlət mülkiyyətini talan edən kommunistlərə liberal münasibətinə görə Bakı Sovet İcraiyyə Komitəsinin rəhbərlərini, rayon komitələrinin birinci katiblərini tənqidə məruz qoydu.

1971-ci il fevralın 5-də 40-cı Bakı şəhər partiya konfransında çıxış edən dahi lider sənaye və nəqliyyat, kənd təsərrüfatı, elm və mədəniyyət sahələrində dirçəlişdən söz açaraq bildirirdi ki, 1970-ci ildə sənayedə bütün müharibədən əvvəlki beşilliklərdən iki dəfə artıq məhsul istehsal etdirilib. Həmçinin SSRİ tarixində ən yüksək taxıl və pambıq məhsulu yetişdirilmişdi. Mütəxəssislər hazırlanmasında respublikanın nailiyyətləri xaricdə qiymətləndirilmiş, 36 ölkənin nümayəndəsi olan 840-dan artıq oğlan və qız Azərbaycanın ali məktəblərində təhsil almağa başlamışdır.

1972-ci il kənd təsərrüfatı sahəsində məhsuldarlıq ilə yadda qalmışdır. Əvvəlki ilin planına nəzərən 322 min tona qarşı 380 min tondan çox pambıq, 130 min tona qarşı 168 min ton buğda təhvil verilmiş, tütün məhsuldarlığına görə respublika ölkədə birinci yerə çıxmışdır.

Dahi rəhbərin qarşısında duran ən böyük çətinlik həm də onda idi ki, partiya fəalları və bir çox üzvü liderin ideyalarının aktuallığını və gərəkliliyini dərk edib dəstəkləsələr də, onları mütəşəkkilliklə həll etmək iqtidarında deyildilər. Ona görə də yeni təfəkkürlü, yüksək məsuliyyətli, qətiyyətlə qayda-qanun yarada bilən kadrlara böyük ehtiyac var idi.

1974-cü il iyul ayının 12-də Sov.İKP MK-nın Qurultayındakı çıxışı zamanı Ulu Öndər Heydər Əliyev deyirdi ki, problemi təkcə güc və repressiya tədbirləri ilə həll etmək mümkün deyil. Ona görə də O, Ticarət Nazirliyindən, Azərittifaqdan, Məişət Xidməti Nazirliyindən köhnə qaydada işləməyə son qoymağı, bazarın dəyişən konyukturası strukturunu günün tələblərinə uyğun qurmaq, paralellik və təkrarlamalara son qoymağı tələb edirdi.

“Respublikada mütərəqqi ticarət forma və metodlarının tətbiq olunmasına dair” Qanun qəbul edildikdən sonra görkəmli dövlət xadimi Heydər Əliyev, özünəxidmət mağazalarının sayının artırılmasına, çəkilib qablaşdırılan məhsulların çoxaldılmasına, yarımfabrikat satışın kifayət qədər genişləndirilməsinə və qabaqcadan edilmiş sifarişlə məhsulun evə çatdırılması xidmətinin təmin olunması tələblərini daha da ciddiləşdirdi.

1975-ci ildə respublikada milli gəlir 5,34 milyard manat olmuş və 1970-ci ildəkinə nisbətən 1,32 milyard manat, yaxud 39 faiz artmış, ortaaylıq əməkhaqqı 109,6 manatdan 125 manata qalxmışdır. Bu il ərzində 130 milyon manatdan çox kapital qoyuluşu mənimsənilmiş, istehsalat və digər obyektlər 155 min kvadratmetr sahəni əhatə etmişdir. 4 min vahid mürəkkəb texnoloji və mühəndis avadanlıqları quraşdırılmış, avtomatlaşdırılmış konveyer xətlərinin ümumi uzunluğu 9 kilometr təşkil etmiş, min kilometrə qədər boru və kabel xətti çəkilmişdir.

1976-cı ildə ölkə tarixində ən yüksək taxıl məhsulu (1 milyon 184 min ton) əldə edilmişdir ki, bu da IX beşilliyin ortaillik səviyyəsindən 43 faiz çox idi. Müharibədən sonrakı dövrdə ilk dəfə olaraq Azərbaycanda xalq təsərrüfatının inkişafına dair beşillik plan bütün əsas göstəricilər üzrə həm də vaxtından əvvəl yerinə yetirilmişdir. Respublikada maşınqayırmanın yeni, mütərəqqi sahələri – elektron, radio sənayesi sahələri, yüngül sənaye və yeyinti məhsulları sənayesi üçün maşınqayırma sahəsi və sair sahələr meydana gəlmişdir. Əmək məsrəfi və məhsulun maya dəyəri nəzərəçarpacaq dərəcədə azalmışdır ki, bu da təsərrüfatların rentabelliyini yüksəltməyə imkan vermişdir. Kolxozların xalis gəliri 81 faiz, sovxozların mənfəəti 82,7 faiz artmışdır. Zərərlə işləyən kolxoz və sovxozların sayı xeyli azalmışdır. Neft hesabı ilə üst-üstə neft və qaz çıxarılması 1975-ci ildə 27,1 milyon ton olmuşdur ki, bu da respublikada 1941-ci ildəki ən yüksək hasilatdan bir milyon ton çox idi.1977-ci ildə ölkənin milli gəliri 380 milyard manat təşkil etmişdir. Sənaye məhsulu satışının həcmi üzrə illik plan artıqlaması ilə yerinə yetirilmişdir. Plandan əlavə 6 milyard manatdan çox məhsul satılmış, ölkə tarixində ən yüksək taxıl məhsulu əldə edilmiş (224 milyon), 250-yə yaxın yeni iri dövlət müəssisəsi işə düşmüş, 2 milyon 200 min mənzil və şəxsi ev tikilmiş, nəticədə, 11 milyon nəfərin yaşayış şəraiti yaxşılaşdırılmışdır.

Həmin illərdə ali təhsilin də inkişafı diqqətdə saxlanılmış, beş yeni ali məktəb yaradılmışdır. Pedaqoji institutun filialları bazası əsasında Naxçıvan və Xankəndi müstəqil pedaqoji institutları, Çingiz İldırım adına Politexnik İnstitutunun inşaat və memarlıq fakültələrinin bazasında İnşaat Mühəndisləri İnstitutu, Mirzə Fətəli Axundov adına Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutu və SSRİ-nin 50 illiyi adına Xarici Dillər İnstitutu fəaliyyət göstərir, yeni orta ixtisas məktəbləri açılırdı.

Dahi rəhbər Heydər Əliyev azərbaycanlı gənclər sırasından zabit kadrların hazırlanmasına xüsusi diqqət yetirir, məhz ona görə də Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış internat məktəbinə xüsusi önəm verirdi. 1972-1977- ci illərdə ali hərbi təhsil müəssisələrinə daxil olan azərbaycanlıların sayı bütün əvvəlki illərdən üç dəfə çox olmuş və yalnız 1977-ci ildə bu ali hərbi məktəblərə 150 azərbaycanlı qəbul olunmuşdur. Görkəmli dövlət xadimi 1978-ci ildə ümumxalq müzakirəsində verilmiş təklifləri nəzərə alaraq “Azərbaycan SSR-in milli dövlət və inzibati-ərazi quruluşu” bölməsinə dil haqqında xüsusi maddə əlavə edərək, yəni 73-cü maddəni aşağıdakı şəkildə redaktə etməyi təklif edirdi: “Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir”. 1978-ci ildə kənd təsərrüfatı məhsulunun ümumi həcmi, təxminən, 2 milyard manat təşkil edirdi ki, bu da 1980-ci il üçün planlaşdırılmış səviyyə idi. 1 milyon 169 min ton buğda, 598 min ton çiyidli pambıq, 932 min ton üzüm, 872 min ton tərəvəz, 234 min ton meyvə yığılmışdır.

Dahi şəxsiyyət Heydər Əliyevin rəhbərliyi dövründə iqtisadiyyatda uzun sürən geriliyin qarşısı alınır, artım tempi sürətləndirilir, ictimai əməyin səmərəliliyi yüksəldilir, adambaşına düşən milli gəlirə görə respublikada ittifaq səviyyəsində gerilik azaldılırdı. 1979-cu ildə respublikanın milli gəliri tapşırıq üzrə olan 22 faizə qarşı artaraq 32,5 faiz – 1,7 milyard manat təşkil etmişdi.

Təcrübə göstərir ki, aşkarlıq idarəetmə orqanlarının işinin məhsuldar olması, tərbiyənin səmərəliliyinin, demokratiyanın təkmilləşdirilməsinin, köhnəliyin qalıqları ilə mübarizənin ən təsirli vasitələrindən biridir. Kütlələr partiya təşkilatının prinsipial xətti ilə tanış olduqda, onun xalqdan heç nəyi gizlətmədiyini görəndə bu onların sosial fəallığının artmasına kömək edir. Dahi şəxsiyyət Heydər Əliyevin də “Parlaq və miqyaslı”, “təsirli”, “yaxşı düşünülmüş və əsaslandırılmış”, “fikir etibarilə və problemi işıqlandırmaq baxımından yeni” çıxışları bütün xalq arasında sevilir və rəğbətlə qarşılanırdı.

1980-ci ildə kənd əməkçiləri məhsul istehsalı və tədarükündə Azərbaycan tarixində ən yüksək göstəricilərə nail oldular. Respublikanın dərc olunmuş raportunda öz əksini tapmış rəqəmlər fantastik görünsə də, real gerçəklik idi. 1961-1971-ci illər ərzində respublikada adambaşına düşən milli gəlir 130 manat – ölkə üzrə ümumi göstəricidən üç dəfə az olmuşdur. 1971-1978-ci illərdə hər il bu göstərici 7,1 faiz, orta ölkə göstəricisindən 1,6 vahid çox olmuşdur. Onuncu beşilliyin 4 ili ərzində bu göstərici planda nəzərdə tutulan 22 faiz əvəzinə 32,5 faiz artmışdır. 1980-ci il planının yerinə yetirilməsi nəzərə alınmaqla adambaşına düşən milli gəlir 1200 manat təşkil etmişdir. Bu da 1960-1970-ci illərdə olduğundan 3,5 dəfə çox idi.

Ümummilli Liderimizin dahiliyi ölkəmizin gələcək müstəqil dövlət kimi iqtisadi bazasını hələ ötən əsrin 70-80-ci illərində formalaşdırmaqla tamamlanmır. Bu böyük şəxsiyyətin dahiliyi həm də gələcək müstəqilliyimizin siyasi-ideoloji əsaslarını yaratmaq, müstəqil milli siyasət formalaşdırmaq olub. Görkəmli siyasi xadim Heydər Əliyev 1981-ci ildə Azərbaycan yazıçılarının VII Qurultayında çıxış edərək bildirirdi ki, müasir yazıçı və şairlərin yazıçı sənəti salnaməçi missiyasına yaxındır. Dahi şəxsiyyət şair və yazıçılarımıza müraciətdə onları ilhamlandıraraq deyirdi ki, qoy bu yolda hər bir qələm sahibimizi özünün ölməz “Vaqif” dramında böyük Azərbaycan şairinin tarixi obrazını yaratmış, o dövrün sosial-siyasi həyatının mənzərəsini heyrətamiz dəqiqliklə göstərmiş Səməd Vurğunun yaradıcılıq nümunəsi ilhamlandırsın.

1981-ci ildə Ulu Öndər Heydər Əliyev dünya şöhrətli Norveç alimi və səyyahı Tur Heyerdalı qəbul edərkən o demişdi ki, müxtəlif ölkələrdə olub, lakin heç də hər yerdə Azərbaycandakı kimi dövlətin elmin inkişafında bu qədər maraqlı olmasını görməyib. O, yüksək inkişaf etmiş qədim sivilizasiyanın izləri saxlanılmış Qobustan qayaüstü yazılarının qorunması, dərin, yüksəkixtisaslı tədqiqat obyektinə çevrilməsi üçün necə böyük işlər görüldüyünü müşahidə etdiyini məmnunluqla vurğulayıb. 1982-ci il yanvarın 15-də dahi şəxsiyyət Heydər Əliyevin ədəbiyyat və incəsənət xadimlərindən ibarət böyük bir heyətlə Şuşada, böyük Azərbaycan şairi Vaqifin abidəsinin açılışında iştirak etməsi faktı da dünyaca məşhur alim və səyyahın da qeyd etdiyi kimi, hələ sovetlər dövründə ölkəmizdə Ümummilli Liderin böyük siyasi uzaqgörənliklə milli mədəni irsimizə dövlət səviyyəsində yüksək qayğı göstərilməsinin daha bir təsdiqidir.

Ulu Öndər Heydər Əliyev gələcəkdə müstəqil Azərbaycanın yerli kadr potensialına, hərtərəfli, peşəkar mütəxəssislərə yaranacaq tələbatı da əvvəlcədən görür, buna görə də hələ ötən əsrin 70-80-ci illərində təhsillə ciddi maraqlanır, ali təhsil ocaqlarının rektor və prorektorlarını vəzifələrindən sui-istifadə etdikləri, proteksionizmə və rüşvətxorluğa yol verdikləri üçün ciddi tənqid edirdi. Dahi rəhbər işçinin mühüm mənəvi keyfiyyətlərini sadalayaraq deyirdi: ***“Təkcə başqalarını düzgün və obyektiv tənqid etmək yox, eyni zamanda qüvvə və cəsarət tapıb öz işini və hərəkətlərini də tənqidi təhlil edib qiymətləndirmək, ümumiyyətlə, öz işinə tənqidi yanaşmaq vacibdir. Tutduğu vəzifə nə qədər yüksəkdirsə, vəzifəli şəxs öz fəaliyyətinə, iş yerində məişətdə davranışına bir o qədər məsuliyyətlə yanaşmalı, qazandığı nailiyyətlərdən arxayınlaşmamalıdır. Vəzifəli şəxslərin öz vəzifə səlahiyyətlərindən sui-istifadə faktlarına qarşı amansız mübarizə də işin mühüm amilidir. Yalnız bu yolla insanlara rəhbərlik etmək, onları tərbiyə etmək, bu və ya digər sahəyə başçılıq etmək üçün mənəvi ixtiyar qazanılır”.***

*Ümumiyyətlə, xalqımızın Ümummilli Lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin 1969-1982-ci illərdə KP MK-nın birinci katibi olduğu dövrdə Azərbaycan iqtisadiyyatının, elm və mədəniyyətinin sürətli inkişafı, ölkəmizin nüfuz və şöhrətinin yüksəlişi ilə səciyyələnən tarixi mərhələdir. Dahi şəxsiyyət Sov.İKP MK-nın Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi də siyasi fəaliyyətini ölkəmizin gələcək tərəqqi və rifahına, müstəqilliyə hazırlanma prosesinə həsr etmişdir. Xalqımız 1991-ci ildə dövlət müstəqilliyi bərpa edilərkən və sonrakı mərhələdə – bu müstəqilliyin bünövrəsi əbədi olaraq möhkəmləndirilərkən Ulu Öndərimizin bu misilsiz xidmətlərinin bəhrəsini görmüş və bu gün də görməkdədir. Azərbaycan Heydər Əliyev siyasi ideyalarını rəhbər tutaraq inamla gələcəyə doğru inkişaf yolu ilə irəliləyərkən öz dahi oğlunun əziz xatirəsini hər zaman böyük ehtiram və minnətdarlıqla anacaq.*

**Fariz ƏHMƏDOV**

# Daşınmaz əmlak və torpaq idarəçiliyi sahəsində yeni yanaşmaların reallaşdırılması zəruridir

***Məlum olduğu kimi, son dövrlərdə muxtar respublikada həyata keçirilən sosial-iqtisadi islahatlar daşınmaz əmlak və torpaq idarəçiliyi sahəsində də yeni yanaşmaların reallaşdırılmasını zəruri edir. Xüsusilə bu sahədə vətəndaşlara göstərilən xidmətlərdə əlçatanlığın artırılması, əhalinin mülkiyyət hüquqlarının qeydiyyata alınmasında müasir idarəçiliyin tətbiqi və sair ön plana çıxır. Bu məsələlərlə bağlı suallarımızı Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin rəisi Müslüm Cabbarzadə cavablandırıb.***

***– Müslüm müəllim, muxtar respublikada sosial-iqtisadi sahələrdə aparılan islahatlar daşınmaz əmlak və torpaq bazarını da əhatə edir. İlk olaraq torpaq məsələləri ilə bağlı ilin əvvəlindən görülmüş işlər haqqında məlumat verməyinizi xahiş edirik.***

– Qeyd etmək istərdim ki, təsdiq edilmiş Dövlət proqramlarının müvafiq bəndlərinin icrası, torpaqların elektron uçotunun aparılması və təyinatı üzrə istifadə edilməsinə dövlət nəzarətinin gücləndirilməsi, daşınmaz əmlak üzərində mülkiyyət hüquqlarının qeydiyyatı zamanı operativliyin təmin edilməsi 2023-cü ilin yanvar-aprel ayları ərzində tərəfimizdən diqqətdə saxlanılmışdır. Belə ki, torpaqların elektron kadastr uçotu informasiya sisteminin təkmilləşdirilməsi ilə bağlı işlər davam etdirilmiş, Şahbuz rayonu, Naxçıvan şəhəri və ətraf yaşayış məntəqələri üzrə dövlət və bələdiyyə mülkiyyətində olan kənd təsərrüfatı yerləri (uqodiyalar), o cümlədən kommunikasiya xətləri dürüstləşdirilərək sistemin rəqəmsal kadastr xəritəsinə daxil edilmişdir.

Cari ilin ötən dövrü ərzində müxtəlif ərazilərdə geodeziya-ölçmə işləri yerinə yetirilmiş, müxtəlif məzmunlu və miqyaslı topoqrafik xəritələr, yerquruluşu və sxematik planlar hazırlanmışdır. Ümumilikdə, 4 ay ərzində 9 sifarişçi təşkilatın müraciəti əsasında 80-ə yaxın müxtəlif məzmunlu xəritə, plan və sxemlər hazırlanaraq aidiyyəti üzrə təhvil verilmişdir.

***– Yəqin ki, bu işlərdə dövlət əhəmiyyətli layihələrin də reallaşdırılması üçün müvafiq işlər görülüb.***

– Bəli, cari ilin əvvəlindən muxtar respublikada ciddi sosial-iqtisadi əhəmiyyət daşıyan irimiqyaslı layihələrin reallaşdırılması prosesinə start verilmişdir. Belə layihələrdən biri bərpa olunan enerji mənbələrindən istifadə etməklə muxtar respublikada elektrik enerjisi istehsalının artırılması və ixrac imkanlarının yaradılmasıdır. “Yaşıl enerji” layihələrinin reallaşdırılması məqsədilə Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən 7992 hektar kənd təsərrüfatına yararsız ərazi müəyyənləşdirilmiş, torpaq sahələrinin yerləşdiyi yeri, ölçülərini və sərhədlərini göstərən yerquruluşu xəritələri hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

Həmçinin muxtar respublikada yeni sənaye parkının yaradılması üçün ərazinin müəyyənləşdirilməsi və xəritələşdirilməsi istiqamətində də işlər aparılmışdır. Sədərək rayonu, Qaraağac kəndinin şərq istiqamətində sənaye parkı üçün təklif olunan 1500 hektar ərazi kənd təsərrüfatı təyinatlı torpaqlar kateqoriyasına aid olmaqla, 92 hektarı Qaraağac bələdiyyəsinin mülkiyyətində ümumi istifadədə olan,



657 hektarı Sədərək rayonunun, 751 hektarı isə Şərur rayon inzibati ərazi vahidinin sərhədləri daxilində dövlət mülkiyyətinə aid, qış otlaq sahələrinin qismən yararsız örüş otlaq sahələridir.

Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 10 fevral tarixli Sərəncamına əsasən “İqdır-Naxçıvan Qaz Boru Kəmərinin tikintisi” layihəsinin icrasına da başlanılmışdır. Layihənin dövlət əhəmiyyətli və strateji məqsəd daşımasını nəzərə alaraq İqdır-Naxçıvan Qaz Boru Kəmərinin tikintisi üçün mühafizə zonası ilə birlikdə 34,1 hektar torpaq sahəsinin ayrılması nəzərdə tutulmuşdur ki, bunun da 25,5 hektarı dövlət, 8,6 hektarı bələdiyyə mülkiyyətinə aid olan torpaq sahələridir. Artıq müvafiq torpaqayırma sənədləri hazırlanmış, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Sərəncamı ilə qaz boru kəmərinin tikintisi layihələndirilən torpaq sahələri müvafiq kateqoriyaya aid edilmişdir.

***– Yeri gəlmişkən, muxtar respublikada mövcud su ehtiyatlarının qorunması, səmərəli istifadəsi, nəzarətin gücləndirilməsi və suvarılan torpaq sahələrinin su ilə təminatının yaxşılaşdırılması da günün aktual problemlərindəndir. Xidmət tərəfindən bu istiqamətdə də, sözsüz ki, müəyyən işlər görülür.***

– Əlbəttə, bu zəruri məsələnin həllində Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti də bir sıra tədbirlər həyata keçirir. Belə ki, aktual informasiyaları özündə ehtiva edən suvarılan və dəmyə əkin torpaqlarının elektron xəritəsi hazırlanmışdır. Muxtar respublika ərazisində mövcud olan bütün çaylar, su anbarları, göllər, kanal və kollektorlar, təsərrüfatlararası arxlar xəritədə öz əksini tapmışdır. 107 nasos stansiyası, 931 subartezian quyusu, 389 kəhrizin yerləşmə mövqeyi, həmçinin nasos və subartezian quyulardan qidalanan su borularının həcmi, uzunluğu barədə məlumatlar rəqəmsal xəritəyə yığılmışdır. Hazırlanmış xəritə materialları muxtar respublikada su təminatının yaxşılaşdırılması ilə bağlı həyata keçirilməsi nəzərdə tutulan layihələrin hazırlanmasında istifadə olunacaqdır.

***– Əvvəlki illərdən də məlumdur ki, sizin qurum tərəfindən davamlı olaraq əkinəyararlı torpaq sahələrinin uçot-qeydiyyatı aparılır. Bəzi torpaq sahələrinin yararlığı nəzərə alınaraq əkin dövriyyəsinə cəlb edilir. Hazırda bu sahədə işlər necə gedir?***

– Torpaqlardan təyinatı üzrə və səmərəli istifadə olunmasına dövlət nəzarəti xidmətin əsas vəzifələrindən biridir. Cari ilin əvvəlindən başlayaraq bu il üçün muxtar respublika ərazisində əkin dövriyyəsindən kənarda qalan torpaq sahələri xəritələşdirilmiş və kadastr uçotu aparılmışdır. Müəyyənləşdirilmişdir ki, 7767 hektar suvarılması mümkün olan, əkinəyararlı torpaq sahəsinin 2629 hektarı Şərur rayonu, 3207 hektarı Kəngərli rayonu, 1546 hektarı Sədərək rayonu, 29 hektarı Babək rayonu, 355 hektarı isə Naxçıvan şəhərinin ərazisində, əsasən, Arazboyu ərazilərdə, dövlət və bələdiyyə mülkiyyətinə aid torpaq sahələridir. Eyni zamanda istifadə edilməyən dəmyə əkin sahələri də var. Belə ki, 1646 hektar dəmyə, əkinəyararlı torpaq sahəsinin 91 hektarı Şərur, 177 hektarı Babək, 310 hektarı Ordubad, 743 hektarı Culfa, 208 hektarı Şahbuz, 115 hektarı Kəngərli, 2 hektarı isə Sədərək rayonunun ərazisində, bələdiyyə mülkyyətinə aid torpaq sahələridir.

***– Bəs istifadəsiz qalmış bu torpaq sahələrinin əkin dövriyyəsinə cəlb edilməsi istiqamətində nə kimi işlər aparılır?***

– Muxtar respublikada sahibkarlıq mühitinin aktivləşməsi fonunda sahibkarların kənd təsərrüfatı təyinatlı torpaqlardan istifadəyə marağının artması müşahidə olunur. Yaxşı haldır ki, kənd təsərrüfatında qabaqcıl texnologiyalar əsasında innovativ layihələrin icrası üçün uyğun torpaq sahələrinin seçilməsi ilə bağlı müxtəlif sahibkarlar tərəfindən müraciətlər var və bu, torpaq sahələrinə olan tələbatın ödənilməsində müstəsna rol oynayacaqdır. Hazırda xidmətin müvafiq qurumları tərəfindən sahibkarların müraciətlərinə baxılır, onlara istifadəsiz ərazilərlə bağlı məlumatlar təqdim olunur. Əminliklə qeyd edə bilərik ki, yaxın müddətdə muxtar respublikada bütün sferalarda, o cümlədən torpaqla əlaqədar olan təsərrüfat sahələrində iri və səmərəli layihələrin reallaşmasının şahidi olacağıq.

***– Müslüm müəllim, daşınmaz əmlak bazarı ölkəmizdə, eləcə də muxtar respublikamızda əhəmiyyətli paya malikdir. Əhalinin ildən-ilə artan tələbatını nəzərə aldıqda hər il bu sahədə müəyyən fəallığın nəzərə çarpdığını görürük. Hazırda vəziyyət necədir, bu aktivlik davam edirmi?***

– Bəli, ölkəmizin iqtisadi inkişafı, əhali gəlirlərinin artımı, həmçinin ipoteka kreditlərinin əlçatanlığının artması daşınmaz əmlak bazarında aktivliyin ilbəil yüksəlməsinə səbəb olur. Daşınmaz əmlakın qeydiyyatı ilə bağlı statistikaya nəzər saldıqda, bunu aydın şəkildə müşahidə etmək mümkündür. Belə ki, 2023-cü ilin ötən 4 ayı ərzində muxtar respublika üzrə 1026 torpaq sahəsi, 86 qeyri-yaşayış binası, 117 qeyri-yaşayış sahəsi, 574 mənzil, 1254 fərdi yaşayış evi, 4 çoxmərtəbəli yaşayış binası, 45 əmlak kompleksi kimi müəssisə olmaqla, ümumilikdə, 3106 daşınmaz əmlak obyekti, eyni zamanda 22 ailə təsərrüfatına məxsus həyətyanı təsərrüfat binaları üzərində hüquqlar dövlət qeydiyyatına alınmışdır.

Daxil olmuş müraciətlər əsasında 1137 daşınmaz əmlakın texniki pasportu, 1266 torpaq sahəsinin planı və ölçüsü olmaqla, 2403 texniki sənəd hazırlanmışdır. 2750 texniki sənədin parametrləri daşınmaz əmlakın elektron qeydiyyat sisteminə daxil edilmişdir. Kənd təsərrüfatı təyinatlı torpaq sahələri və onların mülkiyyətçiləri haqqında əvvəllər yaranmış hüquqlara dair 3943 məlumat daşınmaz əmlakın elektron qeydiyyat sisteminə daxil edilmişdir.

Daşınmaz əmlakla bağlı əməliyyatların aparılması üçün 7062 ərizə qəbul olunmuşdur. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə dövlət qeydiyyatına alınan daşınmaz əmlak obyektlərinin sayı 29,5 faiz artmışdır.

***– Muxtar respublikanın rayonlarında da yüksək aktivlik müşahidə olunurmu?***

– Bəli. Ötən 4 ay ərzində xidmətin yerli qurumları tərəfindən, ümumilikdə, 887 əmlaka dair texniki pasport, 1157 torpaq sahəsinə dair plan-ölçü hazırlanmışdır. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə xidmətin yerli qurumları tərəfindən hazırlanmış texniki pasportların sayı 74 faiz, plan-ölçülərin sayı 48 faiz artmışdır.

***– Bilirik ki, rəhbərlik etdiyiniz xidmət tərəfindən artıq bir neçə ildir, əhaliyə müvafiq səyyari və elektron xidmətlər də göstərilir. Bu sahədə ümumi vəziyyəti necə qiymətləndirirsiniz?***

– Vətəndaşlara səyyari xidmət göstərilməsi dövlətimiz tərəfindən xidmətin qarşısına qoyulmuş əsas tapşırıqlardan biridir. Təbii ki, burada da əsas məqsəd vətəndaş məmnuniyyətini təmin etməkdir. Müvafiq xidmətlərin səyyari qaydada göstərilməsinin təmin edilməsi ilə bağlı lazımi tədbirlər həyata keçirilmiş, maddi-texniki baza yaradılmış, xidmətin mərkəzi aparatından və rayon idarələrindən mütəxəssislər cəlb edilmişdir. Qeyd etmək istərdim ki, əvvəlcədən təsdiq olunmuş qrafik üzrə bu ilin ötən 4 ayı ərzində 31 yaşayış məntəqəsində vətəndaşlara səyyari xidmət göstərilmişdir. Yerlərdə qəbul edilmiş ərizələr əsasında mülkiyyət obyektləri daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmış, çıxarışlar hazırlanaraq qısa müddət ərzində yerlərdə vətəndaşlara çatdırılmışdır.

Xidmət tərəfindən vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin və səmərəliliyinin artırılması daim diqqət mərkəzində saxlanılır. Hazırda səyyari xidmətlərlə yanaşı, fiziki və hüquqi şəxslərə 23 adda elektron xidmət də göstərilir. Vətəndaşların təklif edilən elektron xidmətlərdən rahat istifadəsini təmin etmək məqsədilə xidmətlər rəsmi internet səhifəmizdə *(www.emlak.nakhchivan.az)* yerləşdirilmiş və elektron hökumət portalına inteqrasiya olunmuşdur. Vətəndaşlara tələb olunan dövlət rüsumu və xidmət haqqını onlayn rejimdə, eyni zamanda POS-terminal vasitəsilə ödəmək imkanları yaradılmışdır. Ötən 4 ay ərzində xidmətin fəaliyyət istiqamətləri üzrə göstərdiyi elektron xidmətlərdən 410 müraciət daxil olmuş və icra edilmişdir.

Artıq vətəndaşlarımız daşınmaz əmlakın qeydiyyatı ilə bağlı yaradılmış daha bir imkandan yararlana biləcəklər. Sevindirici haldır ki, bu günlərdə Naxçıvan şəhərində ölkə Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə inşa edilən “ASAN xidmət” mərkəzi də fəaliyyətə başlamışdır. Mərkəzdə əhaliyə 360 sayda xidmət göstəriləcək ki, bunlardan da 4-ü daşınmaz əmlakın qeydiyyatı ilə bağlı xidmətlərdir. Həyata keçirilən bütün bu tədbirlər vətəndaş məmnuniyyətinin artırılmasına yönəldilmişdir.

***– Sonuncu sualımı ünvanlamaq istərdim. Məlum olduğu kimi, Naxçıvan Muxtar Respublikasının 2023-cü ilin yanvar-aprel aylarının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr barədə keçirilən müşavirədə rəhbərlik etdiyiniz quruma da müvafiq tapşırıqlar verilib. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi tərəfindən müşavirədən irəli gələn vəzifələrin icrası məqsədilə Tədbirlər Planı təsdiq olunub. Verilən tapşırıqların mahiyyəti və bu istiqamətdə görüləcək işlər haqqında da oxucularımızı məlumatlandırmağınızı istərdik.***

– Vacib bir məsələyə toxundunuz. Müşavirədə ötən 4 ay ərzində müxtəlif istiqamətlərdə görülmüş işlərə dair dinləmələr oldu, əldə edilmiş nailiyyətlər və yol verilmiş nöqsanlar geniş təhlil edildi, müvafiq tapşırıqlar verildi. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyi tərəfindən qarşıda duran vəzifələrlə bağlı Tədbirlər Planında əksini tapan tapşırıqlara müvafiq olaraq Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti torpaqlardan səmərəli istifadəyə nəzarəti daim diqqətdə saxlayacaq, torpaqların mülkiyyətə, istifadəyə və icarəyə verilməsi prosesinin qanunvericiliyə uyğun və operativ təşkilinə nail olmaq üçün səylərini səfərbər edəcəkdir. Eyni zamanda mülkiyyət hüquqlarının qeydiyyatı sahəsində də vətəndaş müraciətlərinin vaxtında və yüksək keyfiyyətlə icra edilməsi üçün tədbirlərimizi davam etdirəcəyik.

***– Suallarımızı cavablandırdığınız üçün sağ olun.***

**Səbuhi HƏSƏNOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## Daha bir qurumun saytı “GOV.AZ” zonasına köçürülüb

Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən muxtar respublikada fəaliyyət göstərən dövlət orqanlarında elektron xidmətlərin göstərilməsi istiqamətində bir sıra zəruri tədbirlər həyata keçirilib.




Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən Naxçıvan Muxtar Respublikasında dövlət qurumlarının internet səhifələrinin “GOV.AZ” zonasında qeydiyyatdan keçirilməsi və təhlükəsizliyinin gücləndirilməsi ilə bağlı həyata keçirilən tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin elektron informasiya resursu yeni *“njustice.gov.az”* domen adı ilə “AzStateNet” şəbəkəsinə köçürülüb. Nazirliyin rəsmi internet saytı Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mühəndis-proqramçıları tərəfindən müasir proqramlaşdırma dillərindən istifadə edilərək hazırlanıb.

Yeni hazırlanmış internet səhifəsinin təhlükəsizliyinin təmin edilməsi, axtarış sistemlərində qeydiyyatdan keçirilməsi və axtarış sistemlərində ön sıralarda tapılması üçün nazirliyin mühəndisləri tərəfindən zəruri texniki tədbirlər həyata keçirilib. Həmçinin saytın domen ünvanı da müvafiq qaydada yenilənməklə domenə bağlı e-poçt adresi ilə təmin ediləcəkdir.

Qeyd edək ki, muxtar respublikada 12 dövlət qurumunun rəsmi internet səhifəsi AzStateNet şəbəkəsinə köçürülüb, digər qurumların da internet səhifələri yenilənməkdədir ki, onların da audit yoxlamaları aparıldıqdan sonra köçürülməsi həyata keçiriləcəkdir. Bunlarla yanaşı, bir sıra qurumlar “GOV.AZ” domeninə bağlı e-poçt adresləri ilə də təmin olunublar.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Təhsil sahəsində quruculuq işləri diqqətdə saxlanılır

Ölkəmizin hər yerində olduğu kimi, muxtar republikada da gənc nəslin yüksək səviyyədə təhsil alması ilə bağlı tədbirlər həyata keçirilir, bədən tərbiyəsi və idmanın kütləvi hal almasına, gənclərin fiziki inkişafına xüsusi diqqət yetirilir. Gənclərlə bağlı reallaşdırılan tədbirlər sırasında onların ümumi təhsil səviyyəsinin artırılması da xüsusi yer alır. Bu məqsədlə hər il müasir avadanlıqlarla zəngin onlarla tam orta məktəb binaları tikilib istifadəyə verilir.



Cari ilin ilk 4 ayında da təhsil sahəsində quruculuq işləri diqqətdə saxlanılıb. Təhsil imkanlarının artırılması məqsədilə 198 şagird yerlik Şərur rayonunun Həmzəli, 414 şagird yerlik Vərməziyar və 378 şagird yerlik Babək rayonunun Vayxır kənd tam orta məktəbləri istifadəyə verilib. Hazırda 4 təhsil müəssisəsində – Babək rayonunun Nehrəm qəsəbə 3 nömrəli, Ordubad rayonunun Azadkənd tam orta məktəbi, Babək və Şahbuz rayonlarının məktəbdənkənar təhsil müəssisələrində təmir-tikinti işləri davam etdirilir.

**Xəbərlər şöbəsi**

## "Heydər Əliyev İli" çərçivəsində məktəblilərin konsert proqramı təşkil edilib



Dünən Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi, Naxçıvan Şəhər Təhsil Şöbəsi və nazirliyə birbaşa tabe məktəblər və məktəbdənkənar təhsil müəssisələrinin birgə təşkilatçılığı ilə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş "Mən fəxr edirəm ki, Azərbaycanlıyam!" mövzusunda məktəblilərin konsert proqramı təşkil olunub.

Tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov Ümummilli Liderimizin elmə, təhsilə göstərdiyi diqqət və qayğıdan ətraflı bəhs edib. Qeyd olunub ki, dahi şəxsiyyətin rəhbərliyi ilə Azərbaycanın təhsil sistemi təkmilləşdirilib və dünya təhsil sisteminə inteqrasiyası üçün geniş imkanlar yaradılıb. Yeni məktəb binaları tikilərək istifadəyə verilib, yeni dərsliklər hazırlanıb və şagirdlərə pulsuz verilib. Təhsil üzrə müxtəlif proqram və layihələr uğurla reallaşdırılıb.

Vurğulanıb ki, əsası dahi şəxsiyyət tərəfindən qoyulan təhsil strategiyası bu gün Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının bütün sahələrlə yanaşı, təhsilə də göstərdiyi diqqət və qayğı nəticəsində təhsilimiz keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyub. Naxçıvan Muxtar Respublikasında da Ulu Öndərin müəllifi olduğu təhsil strategiyasının ölkə başçısı tərəfindən uğurla həyata keçirildiyini bildirən təhsil naziri vurğulayıb ki, müstəqillik illərində muxtar respublikada təhsilə göstərilən dövlət qayğısı nəticəsində bu sahədə böyük nailiyyətlər əldə edilib, öz bilik və bacarığı, vətənpərvərliyi ilə seçilən gənclər yetişib.

Tədbirdə Naxçıvan Şəhər Təhsil Şöbəsinin müdiri Baba Əliyev, Naxçıvan Qızlar Liseyinin direktoru Aidə Allahverdiyeva çıxış edərək Ulu Öndərin təhsil sahəsindəki xidmətlərindən bəhs ediblər.

Tədbirin bədii hissəsində Naxçıvan şəhər 10, 12 və 15 nömrəli körpələr evi-uşaq bağçalarının balaca fidanları "Heydər babamızın nəvələriyik" kompozisiyası ilə çıxış edib, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin dərnək üzvləri, Heydər Əliyev adına tam orta məktəbin və Naxçıvan şəhər ümumtəhsil məktəblərinin şagirdləri Ümummilli Liderə həsr olunan şeirləri bədii qiraət edib, bir-birindən maraqlı musiqi və rəqs nömrələri ilə çıxış ediblər.

Sonda şagirdlərin əl işlərindən ibarət sərgiyə baxış olub.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

*1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə Ümummilli Lider Heydər Əliyevin 100 illiyi ilə əlaqədar olaraq Şərur Rayon İcra Hakimiyyəti Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birgə "Uşaqlar bizim gələcəyimizdir" adlı tədbir keçirib.*

## 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə tədbirlər keçirilib

Tədbirdən öncə Ulu Öndər Heydər Əliyevin rayon mərkəzindəki abidəsi önünə gül qoyulub, əziz xatirəsi ehtiramla yad edilib. Tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin, akademik Zərifə xanım Əliyevanın və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Tədbirdə Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov və Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Gününün yaranması tarixindən, tədbirin əhəmiyyətindən bəhs edib, muxtar respublikada uğurla həyata keçirilən dövlət uşaq siyasətindən, uşaqlara göstərilən hərtərəfli diqqət və qayğıdan ətraflı danışıblar. Qeyd ediblər ki, ölkəmizdə uşaq problemləri hər zaman diqqət mərkəzində saxlanılıb. Ümummilli Lider Heydər Əliyev uşaqların qayğısına dövlət siyasətinin əsas sahələrindən biri kimi baxırdı. Bu siyasət respublikamızda indi də davam etdirilməkdədir. Vurğulanıb ki, uşaqların qanunvericiliklə müəyyən edilmiş hüquq və mənafelərinin qorunması, uşaq hüquqlarının təmin edilməsi üçün əlverişli mühit yaradılıb və onların cəmiyyətin ictimai-mədəni həyatındakı iştiraklarının təmin edilməsi dövlət tərəfindən daim diqqətdə saxlanılır.

Daha sonra Şərur rayonu üzrə təhsil sahəsində ən yüksək göstəriciyə nail olan Hüseyn Bağırov dövlətin uşaqlara hərtərəfli diqqət və qayğısından bəhs edib, şagirdlər adından minnətdarlığını bildirib.

Tədbirdə Şərur rayonu üzrə 2022-2023-cü tədris ilində müxtəlif sahələrdə nailiyyət qazanmış uşaqlar təşkilatçılar tərəfindən hədiyyə və fəxri fərmanla təltif olunublar. Eyni zamanda şəhid ailələrinin uşaqlarına hədiyyə təqdim edilib.

Tədbirdə Şərur rayonu üzrə fəaliyyət göstərən uşaq musiqi və tam orta məktəblərin şagirdlərinin ifasında Ulu Öndərə həsr edilmiş şeir, mahnı və rəqs nömrələri nümayiş olunub.

Sonda Şərur Rayon Mədəniyyət Sarayının foyesində istedadlı uşaqların rəsm və əl işlərindən ibarət sərgiyə baxış olub.

Qeyd edək ki, analoji tədbir Sədərək rayonunda da keçirilib, sonda rayon üzrə 2022-2023-cü tədris ilində müxtəlif sahələrdə nailiyyət qazanmış uşaqlar Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən hədiyyə və fəxri fərmanla təltif olunublar.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Doğma meydançada çempionluq sevinci



*Dünən Naxçıvan Muxtar Respublika Stadionunda Azərbaycan 1-ci Divizion 2022-2023-cü illər mövsümünün çempionunun mükafatlandırma mərasimi olub.*

Azarkeşlər arasında ***"Araz-Naxçıvan" Futbol Klubunun yaradıcısı Tofiq Axundovun həyat yoldaşı Gülər xanım və qızı Nuranə xanımla*** həmsöhbət olduq. Gülər xanım qeyd etdi ki, həyat yoldaşı Tofiq Axundov peşəkar futbolçu olub. "Neftçi" komandasının 3 nömrəli müdafiəçisi kimi bir çox futbol oyunlarında iştirak edib. O, Naxçıvana gəlib bu klubu yaratmağa başlayanda bir çox çətinliklərlə üzləşirdi. Bəzi valideynlər övladlarının peşəkar futbol oynamasına icazə vermirdi. Tofiq isə məhəllə-məhəllə gəzib uşaqları toplamaqdan, onlara bu oyunun sirlərini öyrətməkdən yorulmurdu.1967-ci ildə həyat yoldaşının burada futbol komandası yaratdığını və seleksiya xarakterli məşqlərə start verdiyini bildirən Gülər xanım dedi: – Bu Naxçıvana ikinci gəlişimizdir. İlk dəfə ötən il "Araz-Naxçıvan"ın yaranmasının 55 illiyi münasibətilə gəlmişik. Naxçıvanın gəzməli-görməli yerləri ilə – Möminə xatın türbəsi, Duzdağ Fizioterapiya Mərkəzi ilə tanış olmuşuq, Əshabi-kəhf ziyarətgahına getmişik. Naxçıvanda olub dünyadan vaxtsız köçən həyat yoldaşımın yaratdığı bu klubun oyununu, onları mükafatlandırma mərasimini izləyərkən çox sevindim, dedim ki, kaş Tofiq də sağ olub əkdiyi ağacın bəhrəsini görərdi. Əminəm ki, onun ruhu şaddır, o da bizi izləyir və yaradıcısı olduğu peşəkar futbol klubunun nailiyyətini görür. Meydandakı üç nömrəli oyunçuya baxdıqca Tofiqin də bir vaxtlar futbol meydanında bu nömrə ilə oynadığını xatırlayıram.

Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının (NFF) sədri və "Cahan Holdinq"in qurucusu Vüqar Abbasov həmişə Tofiq Axundovun xatirəsini uca tutub. Ötənilki tədbirdə və bu gün



burada iştirak etmək üçün bizi Naxçıvana dəvət edib. Çox şadam ki, Vətənimizin bu gözəl diyarında bu möhtəşəm tədbirdə iştirak edirəm. Təşkilatçılara təşəkkür edirəm.

Tofiq Axundovun qızı Nuranə xanım da bu gün burada atasının yaradıcısı olduğu futbol klubunun oyununu izləyir. O dedi ki, Naxçıvana ilk dəfə gəldiyi gün də, bu gün də insanların səmimiliyi, qonaqpərvərliyi ilə qarşılaşıb. Naxçıvanın təmizliyi həmişə onun diqqətini çəkib. Budəfəki gəlişlərində Naxçıvan şəhər qəbiristanlığında uyuyan Vətən müharibəsi şəhidlərinin məzarlarını ziyarət etdiklərini bildirən müsahibim qeyd etdi ki, Azərbaycanın bütün şəhər və rayonlarından olan şəhid və qazilər barədə reportajlar hazırlayıb. Arzu edir ki, bu qəhrəman yurdun da igid oğulları haqqında reportajlar hazırlansın.

***Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının (NFF) sədri və "Cahan Holding"in qurucusu Vüqar Abbasov***la həmsöhbət olduqda bildirdi ki, uşaq futbolunu inkişaf etdirmək üçün futbol akademiyası yaradılıb. Klubun sponsoru "Cahan Holdinq" futbolçuların çempion olması üçün tələb olunan hər şeyi edib. Bundan sonra da klubun yüksək liqada uğur qazanması üçün lazımi işlərin görüləcəyinə əminliyini bildirib.

***"Zaqatala" futbol klubunun baş məşqçisi Rüstəm Məmmədov*** dedi ki, bundan əvvəl də Naxçıvana gəliblər. "Araz-Naxçıvan"la, çempion bir komanda ilə bugünkü oyunda qarşılaşma çox maraqlı keçib. Dünənki əlverişsiz hava şəraiti və meydançanın tam quru olmaması oyunçuların çətinliklə qarşılaşmasına səbəb olsa da, oyun çox yaxşı keçdi. "Araz-Naxçıvan" komandasını təbrik edir, bundan sonra da uğurlar arzu edirik.

***"Zaqatala" komandasının kapitanı Roini İsmayılov***la həmsöhbət olduqda bildirdi ki, bugünkü oyundan əvvəl də Naxçıvanda olub. Bu gün burada olmaqdan çox məmnundur: – Oyun gərgin mübarizə şəraitində keçdi. Peşəkar futbolçularla qarşılaşmaq xoş idi. Naxçıvan şəhəri çox təmiz və səliqəlidir. Qalib komandaya bundan sonra da uğurlar arzu edirik.

***"Araz-Naxçıvan" klubunun baş məşqçisi Azər Bağırov*** dedi: – Bu kuboku Ulu Öndərin yüzillik yubileyi ərəfəsində qazandıq və bu qalibiyyəti dahi rəhbərə həsr edirik. Klubun bütün futbolçuları oyunlarda peşəkarlıq nümayiş etdirdi və sonunda qalib gəldik. Gözəl Naxçıvanımızda, doğma stadionda qızıl medallar və kuboku Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin təqdim etməsi isə ayrıca bir qürur yaşatdı bizə. Bundan sonra da Naxçıvanı futbol məkanında layiqincə təmsil etməyə çalışacağıq.

**✍ Ramiyyə ƏKBƏROVA**

## Naxçıvan şəhərinə güclü yağış yağması və dolu düşməsi bir sıra fəsadlara səbəb olub

Mayın 22-də Naxçıvan şəhərinə güclü yağış yağması və dolu düşməsi bir sıra fəsadlara səbəb olub. Belə ki, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin *"112"* qaynar telefon xəttinə Naxçıvan şəhərinə yağan intensiv yağışlar səbəbindən fərdi evlərin və həyətyanı sahələrin, inzibati binaların, avtomobil yollarının subasmaya məruz qalması barədə məlumatlar daxil olub.

Dərhal əraziyə Mülki Müdafiə Alayının, Xüsusi Riskli Xilasetmə Xidmətinin, Naxçıvan Şəhər və Babək Rayon Dövlət Yanğın Təhlükəsizliyi şöbələrinin qüvvələri cəlb olunub.

Fövqəladə Hallar Nazirliyinin qüvvələri tərəfindən su basmış yerlərdən suyun çəkilərək kənarlaşdırılması həyata keçirilib. Belə ki, Naxçıvan şəhəri və Babək rayonunda 40-dan artıq fərdi yaşayış evi, 4 obyekt, 3 inzibati binada suçəkmə işləri aparılıb.

Bütün bu tapşırıqların yerinə yetirilməsinə 159 nəfər şəxsi heyət, 23 texnika cəlb olunub.

Fövqəladə Hallar Nazirliyi bir daha əhaliyə müraciət edərək sel və daşqından qorunmaq üçün sel və daşqın təhlükəli ərazilərdən uzaq durmağı, bu təhlükə ilə üzləşdikdə dərhal yaxınlıqdakı yüksəkliyə qalxmağı tövsiyə edir.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***



## Naxçıvan şahmatçısı Avropa çempionu adını qazanıb

Albaniyanın Durres şəhərində şahmat üzrə məktəblilərin Avropa çempionatı keçirilib. Avropa Şahmat Birliyi (ECU) və Albaniya Şahmat Federasiyasının birgə təşkilatçılığı ilə keçirilən çempionata 25 ölkədən 208 şahmatçı qatılıb. Qitə yarışında "Təhsil" Respublika İdman Mərkəzinin şahmat üzrə yığma komandasının üzvləri, Naxçıvan şahmatçıları, eləcə də çempionata müstəqil olaraq qoşulan təmsilçilərimiz iştirak ediblər.

Ölkəmizi təmsil edən şahmatçılar 2 qızıl, 2 gümüş və 1 bürünc medal əldə ediblər. Bununla Azərbaycan komandası ümumi medal sıralamasında 3-cü yeri tutub.

Yarışda iştirak edən 5 naxçıvanlı şahmatçıdan ikisi ilk üçlüyə düşə bilib. Həmin idmançılarımızdan biri qızıl, digəri gümüş medal qazanıb. Belə ki, 9 yaşadək oğlanların yarışında mübarizə aparan Yasin Əzimov 9 oyunda 7,5 xal toplayaraq çempionluq sevinci yaşayıb. Mirsaleh Seyidli isə 13 yaşadək oğlan şahmatçılar arasında 7 xalla ikinci olub. Digər şahmatçılarımızdan Seyid Hüseyn (U17 oğlanlar) dördüncü, Nazlı Hümbətova isə (U17 qızlar) beşinci sırada qərarlaşıb.

Məlumat üçün bildirək ki, Naxçıvan şahmatçıları arasında sonuncu dəfə belə bir yüksək nəticəyə 2013-cü ildə nail olunmuşdu. Rauf Murtuzov Serbiyanın Novi Sad şəhərində qitə çempionu olmağı bacarmışdı.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Şərur rayonunun Çərçiboğan kəndində yaşamış Abbasov Rafiq Əli oğlunun adına olan JN-387A inventar nömrəli şəhadətnamə itdiyindən etibarsız sayılır.

***

Culfa rayon Əbrəqunus kənd sakini Hüseynov Əvəz Həmid oğluna məxsus JN-149 A və 149 B inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamələr" itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonunun Xok kənd sakini Tağısoy Əli Məmmədhəsən oğluna məxsus JN-645A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, 35-ci məhəllə, ev 48-də qeydiyyatda olan Möhbalıyev Əli Möhbalı oğlunun adına olan 7725 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47

Şöbələr: 545-81-44, 545-51-18

Müxbirlər: 545-75-21, Faks: 544-52-52

E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 347